https://doi.org/10.36719/2663-4619/108/71-75

**Pərvanə Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
atilla.emrahli@gmail.com
https://orcid.org/0000-01234-5657-8898

# Folklorun ideya mahiyyəti

**Xülasə**

Folklorun həyati məzmununu xalqın həyat gerçəklikləri təşkil etməkdədir. Yuxarıda da qeyd olunduğu kimi, insan həyatı beşikdən məzara qədər folklorla əlaqəlidir. Bu əlaqə dolayı deyil, birbaşadır. Başqa deyilişlə, folklorun insan həyatındakı situasiyalarla sıx bağlıdır və onun üzvi bir hissəsidir. Beşik başında layla çalınır, məzar başında ağı deyilir; dünyaya gələn də, dünyadan gedən də oxşanır, əzizlənir. Həyatı və ölümü birləşdirən belə ümumilik, xalqın yaradıcılığında xalqın vəhdət fəlsəfəsi kimi seçilir.

Folklor mövzularını həyatdan almışdır. Daha doğrusu, folklor janrlarının mövzu əsası həyat hadisələri üzərində yaranmışdır. Əski mədəniyyətdə sıx-sıx ritual hərəkətlərini müşayiət edən folklor nümunələri tədricən ondan ayrılır, mərasim mənşəyindən qopduqdan sonra mərasim mənasını itirir. Amma yenə də əski təntənəsi ilə olmasa da, başlanğıcda bağlı olduğu həyat ritmlərinin müəyyən bir situasiyası ilə əlaqəsini kəsmədən yaşamağa davam edir. Bir qisim folklor nümunələri də artıq arxiv materialı kimi qorunur və ya muzey eksponatına çevrilərək sərgilənir. Məqalədə folklor qədim mədəniyyət göstəricisi kimi araşdırılaraq təhlilə cəlb edilir.

***Keywords:*** *folklor, mədəniyyət, qədim, xalq, yaradıcılıq, janr, mövzu*

**Parvana Gasimova**
Azerbaijan State Pedagogical University
atilla.emrahli@gmail.com
https://orcid.org/0000-01234-5657-8898

# Idea Essence of Folklore

**Abstract**

The life realities of the people make up the vital content of folklore. As mentioned above, human life is related to folklore from the cradle to the grave. This relationship is direct and not indirect. In other words, folklore is closely related to situations in human life and is an organic part of it. A lullaby is played at the cradle, a song is sung at the grave; those who come into the world and those who leave the world are admired and cherished. Such commonality, which unites life and death, stands out as the philosophy of unity of the people in the creativity of the people.

Folklore topics are taken from life. More precisely, the theme of folklore genres was created on life events. Folkloric patterns, which closely accompany ritual actions in the old culture, are gradually separated from it, and the ceremony loses its meaning after the ceremony is separated from its origin. But still, although not with the old solemnity, he continues to live without severing the relationship with a certain situation of the rhythms of life that he was connected to at the beginning. Some folklore examples are already preserved as archival material or exhibited as museum exhibits. In the article, folklore is investigated and analyzed as an indicator of ancient culture.

***Keywords:*** *folklore, culture, ancient, people, creativity, genre, topic*

## Giriş

Folklorun ideya mahiyyətini xalqın Tanrıya, təbiətə, cəmiyyətə və insana olan münasibətlərinin məcmusu təşkil etməkdədir. Bu münasibətlərdə ictimai həyat hadisələri insanların zəngin həyat

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

təcrübəsi baxımından təcəssüm etdirilir. Belə zəngin həyat təcrübəsi tarixi hadisələri, ailə münasibətlərini, insanın mənəvi fəaliyyət xüsusiyyətini dərk etməyə, xalqa öz idealları uğrunda çalışmağa və mübarizə aparmağa yardım edir, yüksək əxlaqi keyfiyyətlər tərbiyə edir.

Folklor xalq həyatının mühüm məsələlərinin dərk olunmasına, onların doğru qavranılmasına yardım edərək özündə tərəqqipərvər idealları, xalqın mücadiləsini, onların fəlsəfəsini, ictimai, dini və əxlaqi görüşlərini ifadə edir. Beləliklə, folklorda xalqın mənəvi həyatı bütün çalarları ilə əks olunur. Burada daha çox hadisələrin dəyərləndirilməsi və qəhrəmanların davranışı önəm daşımaqdadır. Folklor üçün personajların hərəkətlərinin aydın şəkildə müsbət və mənfi olaraq dəyərləndirlməsi xarakterikdir. Xalq yaradıcılığındakı qəhrəmanlar xalqın qəhrəman ideallarıdır. Mənfisi xalqın nəzərində ən mənfur olan insan, müsbəti isə müsbət qəhrəman idealıdır. Xalq qəhrəmanlıq haqqında bütün xəyal və təsəvvürlərini onun şəxsinə köçürür (İnan Abdülkadir, 1987). Xalq qəhrəmanı yenilməzdir və onun həll edə bilməyəcəyi bir məsələ yoxdur. Xalq özünün bütün bilik və bacarığını, təcrübədə qazandığı biliklərini, xəyal və fantaziyalarını öz qəhrəmanını idealizə etmək üçün səfərbər edir və onu maksimum səviyyədə təqdim edir. Əfsanədə "ölüm haqdır" hökmünün təsdiqi üçün İsgəndəri Zülmətə qədər aparır, nağılda çarəsizliyə çarə tapmaq üçün sehrli almanı ağ divin bağından gətirdir, dastanda Basat Oğuz elini xilas etmək üçün qeyri-adi qüvvəylə qarşılaşır, böyük bir bəlanın simvolu olan Təpəgözü öldürür, Koroğlu gücsüzün intiqamını güclüdə qoymur, varlıdan alır, yoxsula paylayır, xalqın ədalət idealını xalq təsəvvürünə görə gerçəkləşdirir. Xalq öz düşüncəsinə görə sosial harmoniyanı təmin etməyin yollarını real vasitələrlə tapa bilməyənədə, möcüzəli və ya sehrli vasitələrdən istifadə edərək məqsədinə çatır. Bütün hallarda məsələ mənəvi səviyyədə həll olunur. Gerçəklikdə çözümü çətin olan problem folklorda öz asan həllini tapır. Çünki burada xalqın xəyal gücünün tam potensialı səfərbər olunmuş və işlək vəziyyətə gətirilmişdir (Akalın, 2005).

**Tədqiqat**

Folklorun xəlqiliyi folklorun sosial təbiəti və ideya məzmun xüsusiyyətlərindən bəhs etdiyimiz yerdə göstərilmişdir.

Buraya onu əlavə edək ki, folklorun xəlqiliyinin əsası onun mahiyyətcə tərəqqipərvər ideya daşımasıdır. Folklorda müxtəlif şəkildə təzahür edən xəlqilik onun məzmun və forma xüsusiyyətlərini və hətta əsərin yaradılması prosesinin özünü və xalq içində mövcudluğu xüsusiyyətlərini müəyyənləşdirir. Buraya xəlqi bir nikbinlik də əlavə edilməlidir ki, o da xalq ruhunun ayrılmaz hissəsi kimi folklorda və folklor vasitəsilə xalqın ruhi tarazlığını, psixoloji komfortu və mənəvi harmoniyanı təmin edir.

Kollektiv yaradıcılıq hadisəsi olması folklorun əsas xüsusiyyətlərindən biridir. İlk öncə ona görə ki, folklorun yaranması, mənşəyi ibtidai mədəniyyət dövrünün kollektiv yaradıcılıq hadisəsi ilə əlaqəlidir. Yəni kollektivlik folklorun mənşəyində var. Mərasim mənşəli folklor da cəmiyyət üçün ümumi, ortaq yaradıcılıq hadisəsi kimi səciyyələnir. Bəzi primitiv yanaşmalarda olduğu kimi folklorun sinxron kollektiv yaradılış olaraq anlaşılması yanlışdır. Çünki folklorda kollektiv yaradılış prosesi diaxron hadisədir və zamanla baş verir. Folklor nümunələri ağızdan-ağıza keçir, cilalanır, yayılır. Bununla yanaşı bir sıra peşə, sənət sahələri ilə bağlı sosial qrupların yaradıcılığı da kollektiv xarakterlidir. Bu mənada folklorun yaranmasında və ya yenidən yaradılmasında kollektiv, müxtəlif sosial qruplar və ya xalq iştirak edir (Çobanoğlu, 2002, s. 54).

Ənənəvi yaradıcılıq hadisəsi olması da folklorun əsas səciyyəvi xüsusiyyətlərindən biridir. Ənənəvilik folklor fasiləsizliyi hadisəsidir. Ənənəvilik təhkiyə olunan mətnin nisbi davamlılığı, ifanın və ifa xarakterinin dəyişmədən nəsildən nəslə ötürülməsi, əsrlər ərzində yaranmış müəyyən süjeti və qəhrəmanları, forma və ifadə vasitələri olan əsərlərin saxlanmasıdır. Ənənəvilik də kollektiv yaradıcılıq kimi təkcə şifahi xalq yaradıcılığına aid deyil. O, eyni zamanda digər xalq sənətlərinə (musiqi, rəqs, oyma sənəti, tikmə sənəti, toxuma sənəti və s.) də aiddir (Xəlil, 2006).

Ənənəviliyin sosial-tarixi və mədəni əsasları vardır:

Birincisi, ibtidai icma mədəniyyətindəki birgə yaşayışla bağlı olmasıdır. İkincisi, xalq yaradıcılığında real gerçəkliyin əks olunması, folklor nümunələrinin insan ağlının və düşüncəsinin məhsulu olması ilə əlaqəlidir. Çünki eyni etnik-mədəni mühitdə yaşayış, düşüncə və dil ümumiliyi vardır. Bu da ənənəviliyin yaranmasını şərtləndirir. Üçüncüsü, xalq yaradıcılığının özündə xalq

estetikasının prinsip və kateqoriyalarını ehtiva etməsidir. Başqa deyilişlə, xalqın bədii zövqü ənənəviliyin əsaslarından biri olaraq qəbul edilməkdədir. Çünki xalqın estetik zövqü əsrlər boyu formalaşır və əsrlər boyu da davam edir (Əfəndiyev, 1992).

Dördüncüsü, folklorun xlaq tərəfindən kollektiv olaraq yaradılmasdır. Belə nümunələrə atalar sözləri, bayatılar, əfsanələr, nağıllar və digər anonim xalq yaradıcılığı janrları daxildir. Bu nümunələr kollektiv yaradıldığı üçün, kollektiv olaraq da yaşadılır. Beləliklə, ənənəvilik təmin edilmiş olur. Beşincisi, folkorun şifahiliyi ilə bağlıdır. Şifahi mədəniyyət xalq yaradıcılığı nümunələrinin nəsildən nəslə keçməsinin yollarını tənzimləyir. Belə ki, xüsusi söyləyici tipləri, boy söyləyiciləri-ozanlar, dastan söyləyiciləri-aşıqlar, nağıl söyləyiciləri-naqallar, rəvayət söyləyiciləri-rəvilər, ağı söyləyiciləri-ağıçılar və s. olmuşdur ki, bunlar xalq yaradıcılığı nümunələrini öz yaddaşalarında maksimum dərəcədə mühafizə etmiş və onları söyləyərək yayılmasını və ötürülməsini təmin etmişlər. Ənənəviliyin təmin olunmasında peşəkar folklor söyləyicilərinin rolu böyük olmuşdur (Gökdemir, 2003, s. 89).

Filologiyada, xüsusilə də linqivistikada bu tipli dəyişkənliyə relevantlıq deyilir. Folklorşünaslıqda isə bu dəyişkənlik variantlılıq kimi səciyyələndirilə bilər. Ənənəvilik folklorun fasiləsizliyi və söyləmənin sabitliyi kimi anlaşılırsa, dəyişkənlik buna əks olan bir proses kimi dəyərləndirilə bilər. Amma dəyişkənlik və sabitlik, ya da onları modelləşdirən mədəniyyət qanunauyğuluqları vahid bir sistem təşkil etməkdədir. Fasiləsiz davam edən ənənəvilik, fasiləsiz davam edən dəyişkənliklə ayrılmaz şəkildə fəaliyyət göstərir. Dəyişkənlik müxtəlif səviyyəli variantlar törədə bilər. Ənənəvilik də mühitdən, məkandan, zamandan və şəraitdən asılı olaraq müəyyən dəyişikliklərlə qarşılaşa bilər. Bu zaman mövcud ənənəni bilən peşəkar söyləyici tipləri dəyişkənliyin ciddi dərəcəyə qədər getməsinə mane olur, onu öz ənənəvi məcrasına qaytarırlar. İstər müxtəlif dərəcəli relevantlıqda, istərsə də qeyri-mütəşəkkil mühafizə olunmuş ənənəvilikdə sabit olan invariant struktur saxlanılır. Variantlaşma prosesində isə mövcud motivlər və söyləyici yaddaşının həcmi və improvizasiya imkanları ciddi rol oynayır. Amma bütün hallarda ənənəvi mətnin kod, məlumat və sxem səviyyələrindən biri saxlanılır və ənənə ilə əlaqəsini əldən vermir (Gökyay Orhan Şaik, 2000).

Folklorun səciyyəvi xüsusiyyətlərindən biri də anonimlikdir. Bu xüsusiyyət folklorun bir çox janrlaına aiddir. Amma folklor nümunələrinin müəllifinin olub-olmaması mənasında onları iki yerə ayırmaq zərurəti yaranır. Xalq yaradıcılığının əksər nümunələri anonimdir. Onların müəllifi xalqdır. Ona görə də Azərbaycan xalq yaradıcılığı, Azərbaycan xalq mahnıları, Azərbaycan xalq musiqisi, Azərbaycan xalq rəqsləri və s. deyilir. Xüsusilə orta əsrlərdə yaranmış aşıq yaradıcılığı nümunələrinin hamısını anonim hesab etmək olmaz. Amma bu xüsusiyyət aşıq yaradıcılığını şifahi mədəniyyət hadisəsi olmaqdan məhrum etmir və onu folklor mədəniyyətinin hüdudlarından kənara çıxarmır. Çünki ənənəvilik, şifahilik, kollektivlik, variantlılıq və ya dəyişkənlik kimi xüsusiyyətlər aşıq sənətində də müxtəlif səviyyələrdə müşahidə olunur.

Folklorun bədii sistemi ilk öncə onun janrları ilə xarakterizə olunur. Çünki bu janrların hər birini xalq yaradıb və onlar folklorun bədii sisteminin əsas strukturunu təşkil etməkdədir. Atalar sözü, əfsanə, bayatı, nağıl, dastan, epik və lirik mətnlərin geniş şəbəkəsi bu sistemin nə qədər mürəkkəb və mütəşəkkil olduğunu göstərməkdədir. Bu janrların bir çoxu yazılı ədəbiyyatda yoxdur. Yazılı ədəbiyyat bu janrlardan bəzilərini örnək götürərək onun qəlibləri üzərində əsərlər yaratmışdır. Buraya əfsanə, nağıl, dastan kimi janrlar daxildir. Bayatı şeiri üstündə şeir yazan şairlər də vardır. Əlbəttə, burada istifadə olunan qəliblər, modellər, bədii sistem xalq yaradıcılığına məxsusdur. Ənənəvi qəlibdə olan mətnin içindəki sözlər isə dəyişə bilər (Dorson, 1988, s. 56).

Folklorun bədii sistemində obrazların, motivlərin və süjetlərin özünəməxsus xüsusiyyətləri vardır. İlk öncə, burada bədii kompozisiya vahidləri və mətnin struktur elementləri sabitdir və ənənəvidir. Folklor mətnin morfologiyasında formullaşmış strukturlar iştirak edir. Onlar bir-biri ilə zəncirlənmiş şəkildədir, formullar mətndə təkrarlanır, xəyali ünsürlər geniş işlənir, sehrli və möcüzəli vasitələrdən istifadə olunur, motivlər və süjetlər ənənəvidir. Buraya folklor mətnlərinin şifahi yaranması, şifahi yaşaması, şifahi yayılması və ötürülməsi də əlavə edilməlidir. Çünki folklorun bədii sistemində şifahiliyin də yeri vardır. Belə ki, mətndəki sabit və təkrarlanan formullar şifahiliyin göstəricisidir ki, uzun zaman boyunca mətnin sxemini formalaşdırmışdır.

Folklorun ictimai dəyəri onun idraki, ideya-tərbiyəvi və estetik əhəmiyyətindən ibarətdir. Xalq yaradıcılığının ictimai dəyərini təşkil edən idrak, ideya-tərbiyəvilik və estetik cəhətələr bir-biri ilə sıx şəkildə bağlıdır.

Folklorun idraki əhəmiyyəti hər şeydən öncə real həyat hadisələrinin, xalqın həyat tərzinin xüsusiyyətlərini əks etdirməsində təzahür edir. Sənətdə əks etdirilən həyat həqiqəti ictimai münasibətlər, xalqın əmək və məişəti, yüksək əxlaqi keyfiyyətlər, ölkənin təbiəti və s. haqqında zəngin bilik verir.

Folklorun idraki əhəmiyyətini folklor əsərlərindəki obraz, motiv və süjetlərin insan xarakterlərini, həyat hadisələrini geniş ümumiləşdirməsi və tipikləşdirməsi daha da artırır. Folklorun müxtəlif janrlarının hər biri öz təyinatına uyğun olaraq xalqın həyatında önəmli olan bir mühüm məsələni modelləşdirir. Layla, yatızdırılan uşağa da, layla çalan anaya da ruhi-psixoloji və mənəvi rahatlıq gətirir. Bayatı ayrılıq və həsrət hissini rahatladır, duyğuları səfərbər edərək ağrılı bir mərhələyə keçməsinin qarşısını alır (Kadri Hüseyin Kazım, 1927).

Folklor obrazları çox ümumi və çox tipikdir. Amma bu ümumilik mücərrədlik yaratmadığı kimi, tipiklik də çox fərdilik formalaşdırmağa xidmət etmir. Folklordakı ümumi və tipik obraz xalqın öz obrazıdır. Həmin obrazda xalqın hər bir nümayəndəsinin xüsusiyyəti ümuləşdirilmiş və tipik bir obraza çevrilmişdir. Buradakı insan obrazlarının içərisində yaxşı və pis insanlar var, müsbət və mənfi qəhrəmanlar var. Sehrli personajlar və möcüzəli vasitələr də mənfi-müsbət qütblərinə ayrılırlar. Bu binar oppozisiya (ziddiyət cütlüyü) mifdə xaos-kosmos, ritulda profan-sakral, folklorda isə mənfi-müsbət münasibətləri modelində özünü göstərir (Abbaslı, 2009, s. 78).

Folklorda xalq obrazı əsas və vahid obrazdır. Folklor personajları, insanlar, heyvanlar, quşlar, ağaclar və başqa təbiət hadisələri və digər vasitələr hamısı xalq obrazının tamlığına xidmət edən ünsürlərdir. Xalq obrazı sintaqmatik və paradiqmatik münasibətlər sistemində aydınlaşdırıla və dərk oluna bilər.

Folklorun epik əsərlərində görünən əsas qəhrəmanlar (şah, şahzadə, vəzir, vəkil, cəllad, bağban, ovçu, tacir, sənətkar, zərgər, kəndli, varlı, yoxsul, rəiyyət, qoca, qarı, gənc, qız, oğlan, ağıllı, səfeh, zirəng, tənbəl, sadəlövh, hiyləgər, zalım, mərhəmətli, ədalətli və s.) və qəhrəmana aid xüsusiyyətlər xalqın milli özünəməxsusuluğunu göstərən əsas əlamətlərdir və ya başqa deyilişlə, milli mental xüsusiyyətləridir. Folklor əsərləri bütün sosial təbəqələri təcəssüm etdirir. Burada tam tarixi-mədəni epoxalar və laylar da öz əksini tapa bilir. Məsələn, Şah İsmayıl məhəbbət dastanının qəhrəmanı, Şah Abbas əfsanə və nağıl, Xoca Nəsrəddin lətifə qəhrəmanı olur. Bu qəhrəmanların folklora daxil olması, dövrün motivlənməsi elə həmin mətnlərin özündə izah olunur. Beləliklə, folklorda düşüncəni narahat edən izahsız bir məsələ qalmır. Ona görə də folklorda dərk olunan gerçəklik xalqın düşündüyü həqiqətdir. Xalqın xəyal gücünün maksimum imkanları ilə yaradılan sənətdəki həqiqət onun bütün arzu və istəklərinin həyata keçməsinin, nikbin nəticələrin alınmasının, xoşbəxt sonluğun, sosial harmoniyanın təmin olunmasının əsas ideya-mənəvi qaynağı kimi seçilir (Dorson, 1955).

Xalq yaradıcılığı mütərəqqi ideyalardan, vətənə məhəbbətdən, sülhsevərlikdən ilham alır. Onun yaranışında yalnız pozitiv, mütləq müsbət, maksimum optimist düşüncə iştirak edir. Bundan yaranan əsər də sevgi, gözəllik, nikbinlik, haq və ədalətin qələbəsi ilə dolu olur.

Oğuz yurdu, Oğuz eli, Qazlıq dağı, Gökçə dəniz, Şirvan, Naxçıvan, Ağsu, Qarasu, Kür, Araz, Qarabağ, Aran, Qaradağ, Baba dağ, Şah dağ, Dəmirqapı Dərbənd və s. folklorda vətən obrazını, Azərbaycanın təbiətini əks etdirir. Bu da vətənə təbii gözəllik fəlsəfi mənası qazandırır və onun estetik dərkini təmin edir.

Folklor xalqın milli-mədəni görüşlərini, fəlsəfi baxışlarını, mənəvi dünyasını ifadə edir. Bütün bunlarda folklorun ideya-tərbiyəvi əhəmiyyəti aşkarlana bilir (Gökdemir Gönül, 2003).

## Nəticə

Folklorun estetik əhəmiyyəti ilk öncə onunla şərtlənir ki, o, dil, fikir və bədii düşüncənin əsasında xalqın yaratdığı mükəmməl bir söz sənətidir. Folklor xəyal, təxəyyül, fantaziya və simvolikadan sənətkarlıqla istifadə edərək gerçəkliyi dolayı yolla motivləndirir və onu poetikləşdirir. Bu poetikləşdirmə, sənət yaratma prosesində əsas vəzifəni xalqın bəddi zövqü yerinə yetriri. Yəni

xalqın bədii zövqü folklorun estetik ölçülərini müəyyənləşdirən və modelləşdirən əsas faktor rolunda çıxış edir. Folklor formaları əsrlərlə xalq sənətkarları tərəfindən cilalanıb və estetik ölçülərini sabitləşdirib. Ona görə də folklor estetik hissi, gözəllik hissini, dil, ritm və forma gözəlliyi duyğusunu inkişaf etdirir. Folklorun estetik gücü ədəbiyyat, musiqi, teatr və s. kimi sənət növlərinin inkişafında böyük əhəmiyyət daşıyır. Nizami kimi dahi şairin əsasərlərinin əsas qaynağı folklordur. Füzulinin yaradıcılığında follordan yaradıcı şəkildə istifadə olunur və bu ədəbi ənənə şəklini alır və müasir dövrdə də davam edir. Müasir ədəbiyyatda Sabirin, Cəlilin, Cəfərin, Cavidin, Səmədin, Mir Cəlalın, Bəxtiyarın və başqa onlarla ədibin yaradıcılığında folklor elementləri, motivləri bu və ya başqa şəkildə işlənmişdir. Folklorun az və ya çox dərəcədə ədəbi əsərlərə daxil olması ilk öncə onları zəruri estetik minimumun əsas nüvəsi olan xalq ruhu ilə təmin etmiş olur. Çünki xalq ruhu folklorun hər bir zərrəsində var. Bu zərrələrdən ədəbi əsərdə istifadə olunduqca o əsərlər də xalq ruhunun zərrələri ilə zənginləşərək bir tərəfdən hazır estetik elementlər alır, digər tərəfdən də onları yazıçı düşüncəsi ilə açır, inkişaf imkanlarını aydınlaşdırır, əlavələr edir, yeni keyfiyyət qazandırır və yeni bir estetik aktı, bədii sənət faktını gerçəkləşdirir.

## Ədəbiyyat

1. Abbaslı, İ. (2009). *Folklorşünaslıq. Azərbaycan ədəbiyyatı tarixi.* 6 cilddə. I cild. Elm.
2. Akalın, S. (2005). *Alqışlar və qışqırıqlar*. Çapar nəşriyyatı.
3. Çobanoğlu, Ö. (2002). Halkbilimi kuramaları ve Araştırma Yöntemleri Tarihine Giriş [Introduction to the History of Folklore Theories and Research Methods]. Akçag.
4. Dorson, M. Richard. (1955). İngilis folklorşünasın ilk qrupu. *Amerika folkloru jurnalı*, 64, 267.
5. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı* (dərslik).
6. Gökdemir, G. (2003). *Türk mifologiyasında*. And-And Təşkilatı.
7. Gökdemir Gönül. (2003). Türk mifologiyasının əsasları. *Milli Folklor,* 60, 60-72; TDEA, 1, 136-137.
8. Gökyay Orhan Şaik. (2000). *Dədəm Qorqudun Kitabı.*
9. Xəlil, A. (2006). *Əski türk savlarının semiotikası* [Semiotics of Old Turkic savs]. Səda.
10. İnan Abdülkadir. (1987). Eski Türklərdə ve Folklorda And. Məqalələr və araşdırmalar [Oath in Old Turks and Folklore. Articles and studies].
11. Kadri Hüseyin Kazım. (1927). *Büyük Türk Lüğəti* [Big Turkish Dictionary].
12. Dorson, M. Richard. (1988). *American Foklore*. The University of Chicago Press.

Daxil oldu: 03.09.2024
Baxışa göndərildi: 25.09.2024
Təsdiq edildi: 17.10.2024
Çap olundu: 20.11.2024